# Cinayət işinin istintaqı ilə bağlı müxtəlif versiyalar irəli sürülür



"Bakıdan Qroznıya uçan "Azərbaycan Hava Yolları"na məxsus "Emraer 190" təyyarəsi Qazaxıstanın Aktau hava limanı yaxınlığında qəzaya uğrayıb. Təyyarədə 62 sərnişin, 5 ekipaj üzvü olub. Məlumatlara əsasən, 38 nəfər həlak olub. Onların 25-i Azərbaycan, 7-si Rusiya, 6-sı Qazaxıstan vətəndaşlarıdır. Sağ qalan 29 nəfər isə xəstəxanaya yerləşdirilib".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev deyib. Deputat xatırladıb ki, xəstəxanaya yerləşdirilənlərdən 15-i Azərbaycan, 9-u Rusiya, 2-si Qırğızıstan vətəndaşlarıdır. Üç nəfərin vətəndaşlığının dəqiqləşdirilməsi istiqamətində iş aparılır. Beş ekipaj üzvünün hamısı Azərbaycan vətəndaşlarıdır. Üç nəfərin həlak olduğu, iki nəfərin sağ qaldığı bildirilir. Hadisə yerində fövqəladə vəziyyət elan edilib. Kinoloji xidmətin iştirakı ilə axtarış-xilasetmə işləri davam etdirilir. Fəsadların aradan qaldırılmasına 400-dən çox mütəxəssis, 90-dan çox texnika, iki təyyarə, iki kinoloji texnika cəlb olunub. Bu, Qazaxıstan tərəfinin verdiyi məlumatdır.

Komitə sədri qeyd eidb ki, dekabrın 25-də MDB başçılarının Zirvə görüşündə iştirak etmək üçün Bakıdan Sankt-Peterburqa səfərə gedən Prezident İlham Əliyev uçuş zamanı faciə ilə bağlı məlumat alan kimi dərhal tapşırıqlar verib və geri dönüb: "Hələ havada ikən cənab Prezident bu hadisə ilə bağlı müvafiq göstərişlər verib. Baş nazirin rəhbərliyi ilə komissiyanın yaradılması, eyni zamanda Azərbaycan nümayəndələrindən ibarət heyətin qəzanın baş verdiyi Aktau şəhərinə ezam edilməsi tapşırılıb. Əlavə tapşırıqla azərbaycanlı həkimlərdən ibarət briqada da Aktau şəhərinə göndərilib. Baş vermiş hadisə ilə bağlı Aktauda Azərbaycanın baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 262.3-cü (hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismarı qaydalarını pozma ehtiyatsızlığından iki və daha çox şəxsin ölümünə səbəb olduqda) və 314.3-cü (səhlənkarlıq iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə tapşırılıb".

Cinayət işinin istintaqı ilə bağlı müxtəlif versiyalar irəli sürüldüyünü deyən A.Nağıyev vurğulayıb ki, hadisə ciddi şəkildə araşdırılacaq və məsələyə aydınlıq gətiriləcək. Bütün proseslər Prezident İlham Əliyevin nəzarətindədir. Eyni zamanda dövlət başçısı təyyarə qəzası ilə bağlı müşavirə keçirərək, bir daha tapşırıqlarını verib. Faciə ilə bağlı 26 dekabr Azərbaycanda matəm günü elan edilib.

Komitə sədri qeyd edib ki, Prezidentin müvafiq tapşırığına əsasən, qəzada həlak olanların ailə üzvlərinə müvafiq yardımın göstərilməsi, həmçinin həlak olanların nəşinin ölkəyə gətirilməsi, dəfnləri ilə bağlı da tapşırıqlar verilib. Bütün proseslər Prezident İlham Əliyevin bir rəhbər olaraq istər xoş, istərsə də ağır günlərdə xalqının yanında olduğunu, acını bölüşdüyünü bir daha göstərir.

A.Nağıyev hesab edir ki, cinayət işinin istintaqı ilə bağlı Baş Prokurorluqda yaradılmış istintaq qrupunun Qazaxıstana ezam olunmuş nümayəndələri həmin ölkənin mütəxəssisləri ilə birlikdə ciddi təhqiqatlar aparıb, irəli sürülən versiyaları dəyərləndirərək qəzanın necə baş verməsi barədə ictimaiyyətə məlumat verəcəklər. "Təyyarənin qara qutusunun tapılması mühüm məsələdir. Bu proseslərdə Prezidentin daim Azərbaycanın suverenliyi, xalqın rifahı və hər bir vətəndaşın yanında olması ilə bağlı atdığı addımlar çox təqdirəlayiq hal kimi dəyərləndirilir. Azərbaycan xalqı da əmindir ki, bu problemlərin həlli istiqamətində cənab Prezident kimi qətiyyətli lideri və Ali Baş Komandanı var.

Qəzada həlak olanlara Allahdan rəhmət diləyir, yaralılara isə tezliklə şəfa tapmalarını arzulayıram.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 27 dekabr (№ 287).- S.4.